# MÜBARİZ KEŞİKDƏ

18 yanvar 2018-ci il
Cümə axşamı
№ 2(3367)

1933-cü ildən çıxır
Qiyməti 30 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2017-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASI KEÇİRİLİB

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda giriş nitqi söyləyib. Bildirilib ki, 2017-ci ildə ölkəmiz sürətlə və uğurla inkişaf etmişdir. Həyatımızın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin ümumi inkişafına böyük töhfə vermişdir. Azərbaycan xalqı 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün dünyanın müxtəlif yerlərində risklər, təhlükələr artır, qanlı münaqişələr, qarşıdurmalar geniş vüsət alır. Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir.

Azərbaycan Prezidenti daha sonra deyib:

-Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda, bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.

Əminəm ki, 2018-ci ildə də Azərbaycanda bu müsbət meyillər daha da güclənəcək. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir və xalq-iqtidar birliyi bu gün də göz qabağındadır. Bizim uğurlu siyasətimizin təməlində xalq tərəfindən göstərilən dəstək dayanır. Bu müsbət meyillərin gücləndirilməsi, əlbəttə ki, ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcəkdir…

Daha sonra qeyd olunub ki, ötən il iqtisadi sahədə çox böyük uğurlar əldə edilib. Bunu mötəbər beynəlxalq maliyyə qurumları da, mötəbər təşkilatlar da təsdiqləyir. Həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verirlər. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Bu, onu göstərir ki, hətta iqtisadi cəhətdən o qədər də asan olmayan ildə də biz inkişaf



edirik. Ümumi daxili məhsul az da olsa artmışdır. Qeyri-neft sektorunda artım 2,5 faiz təşkil edir. Sənaye sahəsində qeyri-neft sektoru 3,6 faiz, kənd təsərrüfatı 4,1 faiz artıb. 2017-ci ildə valyuta ehtiyatları 4,5 milyard dollar artıb və hazırda təxminən 42 milyard dollar təşkil edir.

Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Bu da onu göstərir ki, həm yerli və həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar. Bu, eyni zamanda, sabitliyin təzahürüdür. Ancaq sabit olan ölkələrə və gözəl gələcəyi olan ölkələrə xaricdən investisiyalar qoyulur. İl ərzində təxminən 15 milyard dollar investisiyanı cəlb etmək böyük nailiyyətdir.

İxrac potensialı artır. Ötən il ixrac 19 faiz, qeyri-neft ixracı 24 faiz artmışdır. Əhalimiz artır. Hər il əhali ən azı 100 min nəfər artır. İstehlak artır, turistlərin sayı çoxalır. Keçən il 2016-cı ilə nisbətən 500 minə yaxın çox turist gəlmişdir. Bu da təbii ki, istehlakın artmasına gətirib-çıxarır. Buna baxmayaraq, qeyri-neft ixracı, o cümlədən ərzaq məhsullarının ixracı sürətlə artır.

Biz hərbi gücümüzü də artırırıq. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir. Hərbi bazalar, şəhərciklər, hərbi hissələr yenidən qurulur, əsaslı təmir edilir. Hərbi şəhərciklərimizin, bazalarımızın, hissələrimizin 80 faizi artıq beynəlxalq standartlara cavab verir.

Dövlət rəhbərimiz çıxışında ilin ən önəmli hadisələrindən danışarkən deyib:

-Əlbəttə ki, il ərzində bir çox hadisələr baş vermişdir. Mən onlar haqqında burada danışsam bir neçə saat vaxt lazım olacaq. Bir daha demək istəyirəm ki, 2017-ci il ölkəmiz üçün uğurlu olmuşdur, ölkəmiz daha da güclənmişdir və ölkəmiz gələcəyə nikbinliklə baxır. Əminəm ki, bu il də uğurlu il olacaqdır...

Sonra maliyyə naziri Samir Şərifov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev iclasda çıxış ediblər.

Daha sonra Prezident İlham Əliyev iclasda yekun nitqi söyləyib. Ölkə rəhbərimiz deyib:

-Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq, demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki, Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz olub, torpaq itkilərimiz də olub və bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə, biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir.

Bunu nəzərə alaraq mən 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edirəm. İl ərzində həm ölkəmizdə, həm xaricdə bununla əlaqədar bir çox tədbirlər keçiriləcəkdir…

# BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOVUN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə təkbətək görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın Baş naziri Boyko Borisovu qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Həmin gün təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstanın Baş naziri Boyko Borisov görüşdə çıxış ediblər.

Yanvarın 15-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 15-də Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovla birgə şam ediblər.

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 10-da Gürcüstanın Azərbaycan Respublikasında ilk fövqəladə və səlahiyyətli səfiri Giorgi Çanturianın vaxtsız vəfatı ilə əlaqədar mərhumun ailəsinə başsağlığı verib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı yanvarın 11-də qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozduğuna görə Sabirabad Rayon Məhkəməsinin hakimi Təyyar Bəhrəm oğlu Abbaslının səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri yanvarın 12-də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Əhəd Mikayıl oğlu Abıyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Yanvarın 15-də Azərbaycan Prezidenti İlham Əliyev tankerin qəzaya uğraması nəticəsində ekipaj üzvlərinin həlak olması ilə əlaqədar İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Ruhaniyə başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 16-da Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin rəhbəri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlət başçımızın 12 yanvar 2018-ci il tarixli fərmanı ilə «Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Strukturu» təsdiq edilib.***

❖❖❖❖❖

**Ölkə rəhbərimizin 12 yanvar 2018-ci il tarixli fərmanı ilə «Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə» təsdiq edilib.**

❖❖❖❖❖

***Yanvarın 12-də dövlətimizin başçısı Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında fərman imzalayıb.***

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Daxili İşlər Nazirliyində 2017-ci ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir, general-polkovnik Ramil Usubov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquq-mühafizə siyasəti sayəsində daxili işlər orqanlarında da fəaliyyətin təkmilləşdirilməsi, əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb, asayişin, təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması və digər sahələrdə qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrası təmin edilib.

Qeyd olunub ki, ölkəmiz cinayətkarlıqla mübarizənin nəticələrinə görə, ötən il də MDB və Avropa məkanında öncül mövqeyini saxlayıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 271-dən 264-ə qədər azalıb. Dünya İqtisadi Forumunun "2017-2018-ci illər üzrə qlobal rəqabətlilik» hesabatına əsasən, "Polis xidmətlərinin etibarlılığı" indikatoru üzrə respublikamız 21 pillə irəliləyərək 137 ölkə arasında 54-cü yerdə qərarlaşması da diqqətəlayiq fakt kimi vurğulanıb.

Hesabat məruzəsi ilə çıxış edən daxili işlər naziri R.Usubov deyib ki, 2017-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26.113 cinayət qeydə alınıb. Onların 93,1 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olub. Bu cinayətlərin 86,3 faizini böyük ictimai təhlükə törətməyən və az ağır, yalnız 13,7 faizini ağır və xüsusilə ağır növlər təşkil edib.

Profilaktik iş sahəsində davam etdirilən tədbirlərlə ötən il cinayətlərin ümumi sayı 2016-cı illə müqayisədə 2,7 faiz, o cümlədən ağır və xüsusilə ağır cinayətlər 9, qəsdən adam öldürmələr 9,5, quldurluqlar 23,6, soyğunçuluqlar 16,6, dələduzluqlar 11,8, hədə-qorxu ilə tələb etmələr 10,5, xuliqanlıqlar 15,1, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 12,5, yol-nəqliyyat hadisələri 8,6, qəzalarda ölənlərin sayı 1,2, xəsarət alanların sayı 14,2 faiz azalıb.

*Ardı 2-ci səhifədə.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**Yanvarın 17-də Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2017-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Ramil Usubov ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin 2017-ci ildə əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatın, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Nazir Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib.

Qeyd olunub ki, görülmüş işlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Daxili işlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Daxili Qoşunlar komandanı ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsi-



nin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, maddi-tədris bazasının inkişaf etdirilməsinin, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara yüksək peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb.

O da qeyd olunub ki, qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun riayət olunması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq qrup halında nizamnamədən kənar münasibətə yol verilməyib, 2016-cı illə müqayisədə ötən il hərbi qulluqçular tərəfindən törədilən cinayətlərin, kobud intizam pozuntularının, xəsarətlərin sayı əhəmiyyətli dərəcədə azalıb.

Ötən il şəxsi heyətin kazarma-məişət şəraitinin yaxşılaşdırılması və müasir standartlara uyğunlaşdırılması, hərbi hissə və bölmələrin silah və xüsusi texnika ilə təchizatı istiqamətində nəzərdə tutulan işlər uğurla icra edilib.

Müşavirəyə yekun vuran daxili işlər naziri şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

O deyib ki, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi, o cümlədən şəxsi heyətin Vətənə və hərbi anda sədaqət, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması istiqamətində zəruri tədbirlər davam etdirilməlidir.

Nazir bu yubileylər ilində baş tutacaq mühüm dövlət tədbirləri və "2018 Formula-1 Azərbaycan Qran Pri"si kimi beynəlxalq əhəmiyyətli idman yarışı ilə əlaqədar, Daxili Qoşunlarda bütün təşkilati tədbirlərin müəyyən edilmiş vaxtda keçirilməsinin, bu zaman qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsinin əhəmiyyətini vurğulayıb.

General-polkovnik Ramil Usubov hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, hərbi qulluqçuların Vətənə, dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə edilmələrinin, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların polis əməkdaşları ilə bərabər istənilən əmr və göstərişlərin ən yüksək səviyyədə icrasına hər zaman hazır olmalarını tələb edib.

Nazir Daxili Qoşunların şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevi əmin edib ki, hərbi qulluqçular qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.

*17 yanvar 2018-ci il.*

## XALQIMIZIN UNUTMADIĞI GÜN

**Qanlı 20 Yanvar faciəsindən 28 il ötür. Yanvarın 20-si əhalinin Şəhidlər Xiyabanına axını davam edir, insanlar şəhidləri böyük ehtiramla anırlar.**

1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə sovet ordusu əvvəlcədən fövqəladə vəziyyət elan etmədən Azərbaycana qarşı hərbi əməliyyatlara başlayıb. Faciə nəticəsində 131 nəfər həlak olub. Onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar olub. 744 insan yaralanıb, 4 nəfər itkin düşüb, 400 nəfər həbs edilib. Yanvarın 20-si fövqəladə vəziyyət elan edildikdən sonra daha 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan edilmədiyi rayonlarda (Neftçala, Lənkəran) isə 26 nəfər qətlə yetirilib.

Xalqımızın qan yaddaşına yazılan belə hadisələr az olmayıb. 20 Yanvar 1990-cı il tarixi də yaddaşlara məhz qanla yazıldı. 20 Yanvar xalqımızın yaşadığı müsibətlər və facilər silsiləsindən biri olsa da, əslində, qürur və iftixar mənbəyi, haqq hayqırtısı, milli oyanış, birlik, həmrəylik günüdür.

20 Yanvar faciəsi təkcə Azərbaycan xalqının deyil, bəşər tarixinin ən qanlı səhifələrindən biri, insanlığa qarşı təcavüzdür.

19 yanvar - şənbə gecəsi qanla başlasa da, azadlığın şəfəq kimi saçıldığı günə çevrildi. Bu hadisə Azərbaycan xalqının iradəsini, yenilməzliyini bütün dünyaya nümayiş etdirdi. Qürur, fəxr yerimiz olan Şəhidlər xiyabanı vətənə, torpağa, anaya, könül sevdasına məhəbbətin ünvanına çevrildi. Həmin gün Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli-azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi.

1990-cı il yanvarın 20-də baş verən hadisələr süquta uğramaqda olan sovet imperiyasının mənfur repressiya maşınının xalqımıza qarşı törətdiyi amansız cinayət idi. Bu hadisə xalqımızın müstəqillik uğrunda mübarizəsinin kulminasiya nöqtəsi oldu.

İmperiya rejiminin həyata keçirdiyi repressiv tədbirlər Azərbaycanda azadlıq hərəkatının qarşısını ala, xalqın içində olan narazılığı boğa bilmədi.

***Natiq Cavadov,***
***polis baş leytenantı***



**Əvvəli 1-ci səhifədə.**

Peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərin açılması 3,6, ağır və xüsusilə ağır cinayətlərin açılması 2,8, quldurluqların açılması 8,6, soyğunçuluqların açılması 5,5, hədə-qorxu ilə tələb etmələrin açılması 0,3, oğurluqların açılması 6,4, dələduzluqların açılması 2 faiz yaxşılaşıb. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlər üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri də davam etdirilərək 418 cinayətin açılması təmin edilib.

Məruzəçi hüquqpozmaların qarşısının vaxtında alınmasında informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyətini də qeyd edib. Nazirliyin "102" xidmətinə daxil olan məlumatlar üzrə operativ tədbirlər və əməliyyat planlarının vaxtında tətbiqi nəticəsində 1726 cinayətin "isti izlər"lə açıldığını, 10.607 hüquqazidd əməlin qarşısının alındığını vurğulayıb.

"Təhlükəsiz şəhər" sisteminin texniki imkanları ilə 624 cinayət açılıb, piyadaların vurulması faktları da daxil olmaqla 18.132 yol-nəqliyyat hadisəsi aşkarlanıb, axtarışda olan 84 avtomobil saxlanılıb.

Hüquqazidd əməllərdən zərər çəkənlərin qanuni mənafelərinin müdafiəsində və ədalətin bərpasında mühüm əhəmiyyət kəsb edən cinayətə görə məsuliyyətin labüdlüyünün təmin edilməsi üzrə fəaliyyət də nəzarətdə saxlanılıb, məhkəmə, istintaq və təhqiqat orqanlarından yayınan 3415 nəfər və ya müqayisə edilən dövrə nisbətdə 13 faiz çox təqsirləndirilən şəxs tutulub.

İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 76 nəfərin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 39 şəxsin yeri müəyyən olunub. Bütövlükdə, axtarış işinin göstəricisi 71,4 faiz təşkil edib.

Daxili işlər naziri qeyd edib ki, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə məqsədyönlü şəkildə həyata keçirilib və hesabat ilində 2698 cinayət törətmiş 1028 cinayətkar qrup zərərsizləşdirilib.

Transmilli mütəşəkkil cinayətlərdən olan narkotraffikə qarşı həyata keçirilən tədbirlərlə qanunsuz dövriyyədən 944,5 kiloqram narkotik vasitə çıxarılıb, 78 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz olaraq, kultivasiya edilən və yabanı halda bitən 175 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

İnsan alverinin və bu cinayətin qurbanlarının müəyyən edilməsi üzrə Milli Fəaliyyət Planı əsasında görülən işlər də ardıcıl olub. Nəticədə 142 insan alveri və 6 məcburi əmək cinayəti müəyyən edilib, 17 nəfərdən ibarət 8 cinayətkar qrup zərərsizləşdirilib. Qurbanların müdafiəsi, hüquqlarının bərpası və sosial reabilitasiyası üzrə fəaliyyət çərçivəsində 71 şəxsin cəmiyyətə reinteqrasiyası təmin edilib.

Ötən il respublikanın hüquq-mühafizə orqanları tərəfindən 32 min 500 cinayət işinin istintaqı aparılıb ki, onlardan 84 faizi daxili işlər orqanları müstəntiqlərinin icraatında olub. İstintaqı tamamlanmış 9.085 cinayət işi ittiham aktı ilə məhkəmələrə göndərilib. Vətəndaşlara dəymiş maddi ziyanın ödətdirilməsi 2016-cı illə müqayisədə 14,5 faiz yaxşılaşaraq 84,9 faiz təşkil edib.

Məruzədə artıq beşinci ildir ki, yol-nəqliyyat hadisələrinin dinamikasında, qəzalarda ölən və xəsarət alanların sayında nəzərəçarpan azalmanın müşahidə olunduğu diqqətə çatdırılıb. Bildirilib ki, yol hərəkəti qaydaları əleyhinə olan hüquqpozmaların aşkarlanması hesabat dövründə 17,6 faiz artaraq 3.365.417 inzibati xəta təşkil edib. Bütövlükdə, müxtəlif inzibati xətalara görə respublika üzrə 2016-cı illə müqayisədə 17,2 faiz çox və ya 3.481.458 protokol tərtib edilib.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətinin sosial müdafiəsinin və xidmət şəraitinin yaxşılaşdırılması ilə bağlı 2017-ci ildə də mühüm tədbirlər həyata keçirilib. Sistemli şəkildə aparılan müvafiq işin nəticəsi olaraq, komandirlərin və idarəetmə orqanlarının fəaliyyətinin effektivliyi, hərbi hissələrin döyüş qabiliyyəti, əsgər və zabitlərin vətənpərvərlik ruhu və mənəvi-psixoloji durumu əhəmiyyətli dərəcədə yüksəlib.

Ümumən, ötən il ölkədə keçirilmiş 657, o cümlədən 367 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə Daxili Qoşunların, Əlahiddə Çevik Polis Alayının və ərazi polis orqanlarının şəxsi heyəti tərəfindən asayişin və təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirildiyi də diqqətə çatdırılıb.




General-polkovnik Ramil Usubov qeyd edib ki, xidməti fəaliyyətin prioritet istiqamətlərindən olan vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin icrası daim ciddi nəzarətdə saxlanılıb və ardıcıllıqla yerinə yetirilib. Nazirliyin rəhbərliyi tərəfindən 2.018, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 64 şəhər və rayonundan olan 416 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həllini tapıb. Göstərilən sahədə həyata keçirilən tədbirlərin nəticəsi olaraq, polis əməkdaşlarının qanunsuz hərəkətləri barədə şikayətlərin sayı 12,2 faiz azalıb.

İclas iştirakçılarının nəzərinə o da çatdırılıb ki, respublikada cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini, vətəndaşların qanuni mənafelərinin müdafiəsi sahəsində əldə edilmiş müsbət nəticələrə ümumi sayı dünyanın əksər ölkələri ilə müqayisədə xeyli az, yəni əhalinin hər 100 min nəfərinə 259 vahid nisbətində olan polis qüvvələrinin aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlığı şəraitində nail olunub.

Nazir daxili işlər orqanlarına xidməti vəzifələrin icrasında yaxından köməklik göstərdiklərinə görə ölkə vətəndaşlarına, hüquq mühafizə və xüsusi xidmət strukturlarının, kütləvi informasiya vasitələrinin, ictimai təşkilatların rəhbərlərinə və əməkdaşlarına təşəkkürünü bildirib.

Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov çıxış edərək ölkə Prezidenti zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda hüquqi-demokratik islahatların, böyük infrastruktur layihələrinin və sosial yönümlü proqramların uğurla həyata keçirildiyini xatırladıb.

Respublikamızda ictimai-siyasi sabitliyin, habelə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının önəmli rolunu, eyni zamanda, aidiyyatı Dövlət Proqramlarından, Milli Fəaliyyət Planlarından irəli gələn vəzifələrin yüksək səviyyədə icra olunduğunu, cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahələrində bir sıra uğurlar qazanıldığını qeyd edib. Xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyətini, yeni informasiya texnologiyalarının tətbiqinin daha geniş şəkildə istifadəsinin vacibliyini nəzərə çatdırıb.

Məruzə ətrafında Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov, Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov, İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Heydər Heydərov, Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyev, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi Faiq Şabanov, Sumqayıt Şəhər Polis İdarəsinin rəisi Əkbər İsmayılov və başqaları çıxış edərək hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün qarşıya qoyulmuş vəzifələrdən, həyata keçiriləcək konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran daxili işlər naziri 2017-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcud olduğunu bildirib, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldib, konkret tapşırıq və tövsiyələrini verib.

Nazir yerlərdə münaqişəli ailələrin vaxtında uçota götürülməsini, barələrində zəruri profilaktik tədbirlərin keçirilməsinə nəzarətin, əvvəllər məhkum olunmuş şəxslərlə profilaktikanın, eləcə də yol hərəkətinə nəzarətin, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin, xüsusən güclü təsirə malik narkovasitələrin aşkarlanması işinin gücləndirilməsini, istintaq və təhqiqat aparatının cinayətkarlığa qarşı mübarizədə aparıcı rolunun, aidiyyati baş idarə və idarələr tərəfindən ərazi polis orqanlarına idarəçilik təsirinin artırılmasını tələb edib.

Yanvar ayının 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında möhtərəm dövlət başçımızın dünyanın müxtəlif yerlərində risklərin, təhlükələrin artdığı bir zamanda ölkəmizdə sabitliyin, ictimai təhlükəsizliyin, normal həyatın təmin edildiyini, son illər respublikamızın dinamik inkişafının əsasında məhz stabillik, əmin-amanlıq amilinin dayanmasını bir daha vurğulamasına diqqət çəkən cənab nazir sabitliyin və təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətə verdiyi bu ali dəyərə cavab olaraq, daxili işlər orqanlarının bütün qurumlarının böyük əzmlə çalışmasının, peşəkarlığın artırılmasının diqqət mərkəzində saxlanılmasının, Azərbaycan Polisinin 100 illik yubileyini də Vətənə və dövlətə xidmətdə qazanılan yeni uğurlarla qarşılanmasının əhəmiyyətini vurğulayıb.

Nazir, general-polkovnik Ramil Usubov şəxsi heyət adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, ölkədə sabitlik, təhlükəsizlik, fundamental insan hüquq və azadlıqları digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə bundan sonra da etibarlı qorunacaq, qanunla müəyyən edilmiş vəzifələr və qarşıya qoyulmuş bütün tapşırıqlar tam həcmdə yerinə yetiriləcəkdir.

*15 yanvar 2018-ci il.*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2018/2019-cu tədris ili üçün DİN-in Polis Akademiyasına əyani təhsil üzrə kursantların qəbulunu elan edir

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında əyani təhsil üzrə 150 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2018-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2018-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyənlər müsabiqəyə buraxılmırlar.

***Sənədlərin qəbulu 2018-ci il yanvar ayının 10-dan fevral ayının 10-dək hər gün (bazar və bayram günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcək.***

Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);

– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);

– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);

– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-97-76.

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda, daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər DİN-in Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə, qaçış 100 metr məsafəyə – 19 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

***Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcək.***

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 13 sentyabr 2018-ci il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır. Təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.**

## 2018/2019-cu tədris ili üçün DİN-in Polis Akademiyasına qiyabi təhsil üzrə dinləyicilərin qəbulu elanı

DİN-in Polis Akademiyasında qiyabi təhsilə qəbulla bağlı müsabiqədə - sıravi və kiçik, orta və böyük rəis heyəti vəzifələrində 1 ildən az olmayaraq, nümunəvi xidmət edən, ilkin hazırlıq kursu keçmiş, şəxsi, mənəvi və fiziki keyfiyyətlərinə görə fərqlənən tam orta və ya ali təhsilli polis əməkdaşları yanvar - mart aylarında xidmət etdiyi orqana müraciət etməklə iştirak edə bilərlər.

Nəzərə alınmalıdır ki, daxili işlər orqanlarında müddətli müqavilə əsasında xidmət keçən əməkdaşların Akademiyada təhsillə bağlı müraciətlərinə müstəsna hallarda, müqavilə müddətinin uzadılması imkanları, eləcə də xidmətdə fərqlənmələri, yüksək nəticələr əldə etmələri nəzərə alınaraq, məsələyə nazirliyin Baş Kadrlar İdarəsi ilə razılaşdırıldıqdan sonra baxılır. Digər əməkdaşların müraciətlərinə isə heç bir məhdudiyyət qoyulmadan baxılıb, tədris işləri dərhal və son olaraq may ayının 10-dək DİN-in Baş Kadrlar İdarəsinə göndəriləcək.

Cari ilin ikinci rübündə nəzərdə tutulmuş DİN-in seçmə komissiyasından müvəffəqiyyətlə keçdikdən sonra sıravi və kiçik rəis heyətindən olan tam orta təhsilli əməkdaşlar III ixtisas qrupu üzrə nəzərdə tutulmuş fənlər üzrə imtahan verirlər. Ali təhsilli sıravi və rəis heyətindən olan əməkdaşlar isə müsahibədə iştirak edirlər.

**Daha ətraflı məlumatı DİN-in Polis Akademiyasının (012) 454-12-78 və ya Baş Kadrlar İdarəsinin (012) 590-98-16, 18-16 (daxili) nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**



**Rusiyanın Saratov şəhərində gənclər və yeniyetmələr arasında boks üzrə "B" kateqoriyalı beynəlxalq turnir baş tutub. Qeyd edək ki, 13-cü dəfə keçirilən turnirdə ölkəmizi 7 idmançı təmsil edib.**

## QƏLƏBƏ İLƏ QAYITDILAR

DİN İdman Cəmiyyətinin yetirmələrindən olan Zaur İmaməliyev (38.5 kq.) və Məhəmməd Bağırov (81 kq.) öz çəki dərəcələrində yarışdan qalib ayrılıblar.

Digər təmsilçilərimiz Xalid Məmmədov (50 kq.) və Turab Sənqərli (69 kq.) turnirin gümüş medalına sahibləniblər.

Daha üç idmançımız – Şahin Məmmədov (50 kq.), Elşən Quliyev və Elmar Əhmədov (52 kq.) finala qədər irəliləyərək bürünc medal qazanıblar.

Onu da qeyd edək ki, komandamızı bu yarışa İdman Cəmiyyətinin müəllimi, əməkdar məşqçi Yadigar Məmmədov hazırlayıb.

**Adətkar olmuşdular, qaş qaralan kimi "axtarış"a çıxırdılar. Beləcə, "Gecə qara, cücə qara", - deyib avtomobillərin ehtiyat hissələrini oğurlamaqla gün keçirirdilər. Kimisinin avtomobilinin maqnitofonunu, kimisinin güzgüsünü talayır, dəyər-dəyməzinə satırdılar.**

Suraxanı RPİ 33-cü Polis Bölməsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində ayrı-ayrı vaxtlarda törədilmiş, nə az, nə cox, düz 43 cinayətin üstü, nəhayət, açılıb. Həm də bircə gündə.



Bölmə əməkdaşlarının peşəkarlığı sayəsində şübhəli şəxslər saxlanılaraq istintaqa təhvil veriliblər. Araşdırmalar zamanı onların Bakı şəhər sakini Fuad Həsənov və Ağdam rayon sakini, əvvəllər məhkum olunmuş Vaqif Allahyarov olduqları müəyyən edilib.

## SERİAL KİMİ OĞURLUQ

Əməliyyat tədbirləri ilə cütlüyün ötən ilin mart-noyabr ayları ərzində rayon ərazisində 37 avtomobildən akkumlyator, güzgü, maqnitafon, pul və azmış kimi, 2 mağazadan, 1 kompyuter salonundan, 1 "Topaz" mərc oyunları məntəqəsindən, 1 çay evindən və 1 həyətyanı sahədən pul, ərzaq məhsulları və məişət əşyaları oğurlamaları da müəyyən edilib.

Oğurlanmış 16 ədəd avtomobil akkumlyatoru və 4 ədəd "playstation" kompyuteri polis əməkdaşları tərəfindən maddi sübut kimi götürülüb.

İstintaq-əməliyyat tədbirləri davam etdirilir. Onların digər cinayətlərdə də iştirakının olub-olmaması araşdırılır.

*Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı*

## UĞUR QAZANDILAR

**Bayramlar ərəfəsində görkəmli Azərbaycan boksçusu Abbas Ağalarovun xatirəsinə həsr olunmuş gənclər arasında ənənəvi beynəlxalq turnir keçirilib. Azərbaycan Boks Federasiyasının idman zalında baş tutan yarışda yerli idmançılarla yanaşı, 14 xarici dövlətin komandası iştirak edib.**

Azərbaycan milli komandası turnirdə 3 qızıl, 2 gümüş və 7 bürünc medal qazanıb. Bu nəticə Azərbaycanı komanda hesabında birinci edib.

Millimizin heyətində DİN İdman Cəmiyyətinin 3 idmançısı öz gücünü sınayıb. Onlardan 52 kq. çəki dərəcəsində Əflatun Babayev bütün rəqiblərinə qalib gələrək qızıl medala sahiblənib. Cəmiyyətin digər yetirməsi Cavid Qurbanov yarımfinala qədər irəliləyərək bürünc medal əldə edib. O, 69 kq. çəki dərəcəsində öz qüvvəsini sınayıb.



Yarışın sonunda qaliblərə diplomlar və kuboklar verilib.

Komandamızı bu yarışa da əməkdar məşqçi Yadigar Məmmədov hazırlayıb.

*Zeyni Hüseynov, polis serjantı*

## MARAQ DÜNYASI



### QIZILDAN YOLKA

Yaponiyalı zərgər Qinza Tanakanın düzəltdiyi Yeni il yolkası paytaxt sakinləri üçün əsl sürpriz olub. Təmiz qızıldan hazırlanmış yolkanın qiyməti 2 milyon dollardır. Hündürlüyü 2,4 metrə çatan yolka çəkisi 12 kiloqramdan çox olan qızıl plastilinlər və lentlərlə bəzədilib.

Qinza Tanakanın digər məşhur işlərindən biri 24 karatlıq qızıldan düzəltdiyi oyuncaq at, digəri isə 850 min dollarlıq qapıdır.

### QEYRİ-ADİ TAPINTI

Türkiyənin Malatya vilayətinin Doğanşəhir rayonunda təxminən 2 min il yaşı olduğu ehtimal edilən küpə tapılıb. Qədim qənimət kimi dəyərləndirilən küpə muzeyə aparılıb. Hündürlüyü 135, eni 92 santimetr olan küpə böyüklüyünə və vəziyyətinə, eləcə də quruluşuna görə indiyə qədərkilərdən tamamilə fərqli olduğu üçün nadir tapıntı hesab olunub. İlkin rəyə görə, küpə yerli gildən yoğurularaq bişirilib.

### QƏRİBƏ GÜZGÜ

İtaliyada 200 sakini olan Viqanello kəndi böyük güzgü vasitəsilə işıqlandırılır. Alp dağları ilə əhatə olunan kənd dərədə yerləşdiyindən, buraya noyabrın ortalarından fevralın əvvəlinədək Günəş şüaları düşmür. Kənd sakinləri problemin həlli yolunu nəhəng güzgünün köməyilə günəş şüasını əks etdirməkdə görüblər.

Təqribən 40 kvadratmetr sahəsi olan güzgü kəndin 870 metr hündürlüyündə quraşdırılıb. Bundan əlavə, güzgü kompüterlə təchiz olunub ki, bu da Günəşin hərəkət istiqamətini müəyyənləşdirmək imkanı yaradır.



Layihənin dəyəri 100 min avrodur.

### SALATIN XEYRİ

Salat yaddaşı 11 il gəncləşdirir. ABŞ-ın Rush Universitetinin alimləri bu barədə araşdırma aparıblar.

Yaşı 81 olan 960 nəfərin sağlamlıq durumu tədqiq edilib. "K" vitamini ilə zəngin olan kahı, ispanaq və s. kimi göyərtilərlə hazırlanmış salatlardan istifadə edən həmin şəxslər hər il yaddaş və intellekt testlərindən keçirilib. Testlərin nəticəsində məlum olub ki, salat insan yaddaşına müsbət təsir edən ən vacib qidadır.

*Çingiz Şıxverdiyev*

## 100 KİLOQRAMDAN ARTIQ NARKOTİK QANUNSUZ DÖVRİYYƏDƏN ÇIXARILIB

### TƏKCƏ 15 GÜN ƏRZİNDƏ

**Respublikanın daxili işlər orqanları ümumən cinayətkarlığa, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni uğurla davam etdirirlər.**

Bu istiqamətdə həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində cari ilin təkcə 15 günü ərzində güclü təsiredici xüsusiyyətə malik olan, ümumi çəkisi 100 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə, o cümlədən 16 kiloqramdan çox heroin, 32 kiloqrama yaxın tiryək və 53 kiloqrama yaxın marixuana aşkarlanaraq dövriyyədən çıxarılıb.

Psixotrop tərkibli 2000 ədəd "Metadon" və 210 ədəd "Preqabalin" həb və kapsulaları da aşkar edilərək götürülüb.

Bu istiqamətdə tədbirlər qətiyyətlə davam etdirilir.

*Natiq Cavadov, polis baş leytenantı*



**Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hospitalının yaranmasının**

# HOSPİTALIN YARANMASININ 25-ci İLDÖNÜMÜ QEYD OLUNUB

**25-ci ildönümü münasibətilə təntənəli mərasim keçirilib.**

Tədbirin rəsmi hissəsi ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. Dövlət himni ifa olunub.

Hospitalın rəisi, tibb xidməti polkovniki Şəmsəddin Heydərov çıxış edərək ötən illər ərzində tibbi personalın keçdiyi tarixi yoldan, onun fədakar xidmətindən söz açıb.

Daxili Qoşunların Baş İdarəsində Tibb Xidmətinin rəisi, tibb xidməti polkovniki Rasim Qüdrətov hərbi hospitalın yarandığı ilk günlərdən tibb işçilərinin ön cəbhədə yüzlərlə yaralı döyüşçümüzü ölümdən xilas etdiyini xatırladıb. Bu gün Daxili Qoşunların şəxsi heyətinin sağlamlığının keşiyində müsəlləh əsgər kimi dayanan tibbi personalın vəzifələrinin öhdəsindən layiqincə gəldiyi vurğulanıb, qarşıya qoyulan tapşırıqların bundan sonra da uğurla yerinə yetiriləcəyinə, hərbi bilik və bacarıqların, peşəkarlıq səviyyəsinin artırılacağına, hərbi qulluqçulara yüksək tibbi xidmət göstəriləcəyinə əminlik ifadə edilib.

Hərbi hospital rəisinin müalicə işləri üzrə müavini - tibb hissəsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Şahin Şahmarov çıxışında hospitalın yaranması, xidməti-döyüş yolu, formalaşması barədə geniş məlumat verib.



Mərasimdə iştirak edən qonaqlar da çıxışlarında yubiley münasibətilə şəxsi heyəti təbrik edib, arzu və tövsiyələrini çatdırıblar.

Sonra xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiklərinə görə Daxili Qoşunlar komandanının və hərbi hissə komandirinin əmrlərinə əsasən, hərbi hospitalın bir qrup hərbi qulluqçusuna mükafatlar təqdim olunub.

Rəsmi hissə başa çatdıqdan sonra yubiley mərasimi Daxili Qoşunların nümunəvi-göstərici hərbi orkestrinin solistlərinin konsert proqramı ilə davam etdirilib.

***İnformasiya bölməsi***

# ELAN

## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!



Azərbaycan Respublikası daxili işlər orqanları əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Nərimanov rayonu, 2036-cı məhəllədə (Ziya Bünyadov prospektində, «Koroğlu» metrostansiyasının yaxınlığında) kooperativ yolu ilə tikilən 13 mərtəbəli yaşayış binasında ***ilkin ödəniş 50 faiz olmaqla, 1 il müddətinə 1 kvadratmetri heç bir faiz tutulmadan 900 manata 1, 2, 3, 4 otaqlı mənzillər təklif edilir.***

**Mənzillərin sahələri:**

1 otaqlı – 70.63, 72.93 kvm;
2 otaqlı – 88.17, 89.21 kvm;
3 otaqlı – 152.72 kvm;
4 otaqlı – 177.18 kvm.

Həmin binada mənzil almaq istəyən əməkdaşlar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Əsaslı Tikinti İdarəsinə **(tel: (012) 408-81-25)** müraciət edə bilərlər.

**Qeyd: Mənzillərin dəyəri tikintinin sonuna qədər hissə-hissə ödənilməlidir.**



**Bu yaxınlarda Bakı İdman Sarayında keçirilən cüdo üzrə Azərbaycan çempionatında DİN-in Əlahiddə Çevik Polis Alayının taqım komandiri, polis kapitanı Hikmət Cəbiyev növbəti dəfə baş mükafata**

# ÖLKƏMİZİ TƏMSİL EDƏCƏK

**sahib olub və çəkisi 90 kiloqramadək olan cüdoçular arasında bütün rəqiblərinə qalib gələrək daha böyük qələbələr qazanmaq iddiasında olduğunu təsdiq edib. Qeyd edək ki, H.Cəbiyevi bu yarışlara DİN İdman Cəmiyyətinin Cüdo bölməsinin rəhbəri Zakir Kərimov hazırlayıb.**

Polis kapitanı H.Cəbiyev cüdo ilə yanaşı cui-citsu ilə də məşğul olur. Dəfələrlə beynəlxalq yarışlarda, ölkə çempionatlarında, polislər arasında keçirilən turnirlərdə fərqlənib, yüksək mükafatlar qazanıb. Cui-citsu yarışlarına isə təmsilçimizi əməkdar məşqçi Rəsul Məmmədov hazırlayıb.

Bu yarışda H.Cəbiyev qələbə adını qazanmaqla yanaşı cüdo üzrə Meksikada keçiriləcək dünya, Şotlandiyada keçiriləcək Avropa çempionatına vəsiqə əldə edib.

H.Cəbiyev, həmçinin cari ilin aprelində cui-citsu üzrə polislər arasında keçiriləcək Avropa çempionatına qatılacaq. İnanırıq ki, həmişə sevindirici xəbərlərlə qayıdan idmançımız bu yarışda da ümidləri doğruldacaq.

***Zeyni Hüseynov, polis serjantı***

Yanvarın 2-də Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov tərəfindən ölkədə tünd rəngli avtomobillərin istifadəsinə qadağa qoyulub. Ölkə vətəndaşlarına bundan sonra yalnız ağ rəngdə avtomobil istifadə etmələrinə icazə verilib.

Türkmənistan polisi ölkə yollarında ağ rəngli avtomobillərdən başqa bütün maşınları saxlamağa başlayıb. Sürücülər qarşısında şərt qoyaraq onların ya avtomobillərini ağ rəngə boyamalarını, ya da ki, sürücülükdən imtina etməsini istəyirlər.

*****

***Türkiyə Baş Polis İdarəsinə məxsus Xüsusi Təyinatlı Polis Departamentinin ləğvi rəsmi olaraq qüvvəyə minib. Departamentin ləğvi haqqında qərar ölkənin Daxili İşlər***




***Nazirliyinin 2 noyabr 2017-ci il tarixli müraciəti əsasında noyabrın 20-də Nazirlər Kabineti tərəfindən qəbul edilib.***

*****

Çində saxta tanışlıq proqramı tələyə saldığı şəxslərdən külli miqdarda pul ələ keçirib.

Kişilər qarşısındakının süni intellektlə təchiz edilmiş avtorobot proqramı olduğunu bilməyiblər. Bu tələyə 10 mindən çox şəxsin düşdüyü bildirilir. Aldadılanlar "robot sevgililər"inə pul və müxtəlif hədiyyələr göndəriblər. Bu yolla saxta proqram 1 milyard yuan (təxminən 260 milyon manat) ələ keçirib. Polis əməliyyat nəticəsində 600-dən çox şübhəlini saxlayıb.

*****

***Rusiyada Dövlət Yol Müfəttişliyi əməkdaşlarının sayı 2018-ci il yanvarın 1-dən 10 min nəfər azaldılıb. Bu barədə Rusiya DİN-in məlumatında deyilir. Bildirilir ki, Yol Patrul Xidməti və Dövlət Yol Müfəttişliyinin əməkdaşlarının sayı qeydiyyat işləri, imtahan götürmə və sürücülük vəsiqəsini vermə üzrə vəzifələrdən başqa, digər sahələrdə azaldılıb. Məlumata əsasən, ixtisara düşən polislər Daxili İşlər Nazirliyinin digər şöbələrindəki vakant vəzifələrə yerləşdiriləcək.***

*****

Fransanın daxili işlər naziri Cerard Kollomb bildirib ki, 2017-ci ildə 20 terror hücumu zərərsizləşdirilib.

Statistikaya görə, 2015-ci ildən bəri Fransada 230 mindən çox insan terror hücumlarında həyatını itirib. 130 nəfərin ölümü ilə nəticələnmiş 2015-ci ilin noyabrında Parisdə həyata keçirilmiş terror hücumundan sonra fövqəladə durum bərqərar edilmiş və bir neçə dəfə uzadılmışdı. Prezident Emmanuel Makron həmin terror hücumundan təqribən iki il keçəndən sonra, 2017-ci il noyabrın birində bu ölkədə fövqəladə vəziyyətin başa çatdığını elan edib.

*****

***Türkiyənin Van Prokurorluğu və Polis İdarəsi narkotik tacirlərinə qarşı hər cür imkanlarını istifadə edərək mübarizə aparır.***

***2017-ci ildə Vanda Narkotiklər İdarəsinin 401 dəfə apardığı ayrı-ayrı əməliyyatlarda ümumilikdə 6.5 ton heroin tutulub, 533 nəfər saxlanılıb.***

***Jandarmın keçirdiyi əməliyyatlarda isə bu miqdar 7.5 tonu keçib.***

***Polis İdarəsinin Narkotiklərə Qarşı Mübarizə Şöbəsinin əməkdaşları son əməliyyatlarını Hafiziyə məhəlləsindəki bir evdə aparıblar. Əməliyyatda 140 paket halında 71 kiloqram 377 qram heroin ələ keçirilib.***

***C.Natiq***

# BİRGƏ TƏDBİRLƏR DAVAM ETDİRİLİR

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə respublikanın şəhər və rayonlarındakı meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının tutulmalardan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə tədbirlər həyata keçirir.

2017-ci il ərzində paytaxtın Səbail, Nizami, Yasamal, Binəqədi, Xətai, Sabunçu, Suraxanı, Xəzər, Qaradağ, Abşeron rayonlarında və Sumqayıt şəhəri ərazilərində keçirilən belə tədbirlər zamanı İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi), 266-cı (İstehsalat və məişət tullantıları haqqında qanunvericiliyin pozulması) və 244-cü (Torpaqların (meşəfondu torpaqlar) zibillənməsi və korlanması) maddələrinin tələblərini pozmuş 52 fiziki, hüquqi və vəzifəli şəxs müəyyən edilərək inzibati məsuliyyətə cəlb edilib. Onlara tətbiq olunan cərimələrin məbləği 81.500 manat təşkil edib.

Ümumilikdə ötən il ərzində şəhər, rayon polis orqanları tərəfindən həyata keçirilən belə tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozan 859 nəfər inzibati məsuliyyətə cəlb edilib, onlara ümumilikdə 117.500 manat cərimə tətbiq olunub.

Bu istiqamətlərdə tədbirlər davam etdirilir.

***N.Cavadov, polis baş leytenantı***

## Yanvarın 10-dan 16-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 785 cinayət qeydə alınmış, onların 167-si «isti izlər»lə açılmışdır.
- Axtarışda olduğuna görə 108 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 29 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 12 nəfər ölmüş, 32 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 82 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 219 nəfər saxlanılmışdır.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Nəqliyyatda Baş Polis İdarəsinin rəis müavini Rövşən Eyyubova bacısı
**TƏRANƏ xanımın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əlahiddə Çevik Polis Alayının komandiri Zaur Abdullayev və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Nəqliyyatda Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin şəxsi heyəti baş idarə rəisi Dilqəm Aslanova əzizi
**ƏLİRZA MƏCİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov və Cavid Xaspoladov BƏSİİ-nin əməkdaşı Rasim Heydərova atası
**ABDULLA kişinin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Oktay Kərimova əzizi
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Bərdə RPŞ-nin rəisi İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qobustan RPŞ-nin rəisi Etibar Babayev və şəxsi heyəti İlqar Məmmədova atası
**PAŞA MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.133

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:00